# “Köç yolu” Xan yaylağından keçdi...

***Göygöl rayonunun Xan Yaylağında, III Milli Yaylaq Festivalı çərçivəsində “Gəncəbasarda köç yolu və elat mədəniyyəti: əcdadlarımızın izi ilə” adlı etnoturizm qurultayı keçirildi.***



Regionda təşkil olunan etnoturizmlə bağlı ilk tədbir Dövlət Turizm Agentliyinin Gəncə Regional Turizm İdarəsi və “Cavadxan Mədəniyyət Fondu”nun dəstəyi ilə baş tutdu. Burada, Gəncəbasarda elat mədəniyyətinin tarixi, müasir vəziyyəti, köç yolu və yarımköçəri həyat tərzi və başqa mövzularla bağlı müzakirələr aparıldı. Tədbirin əsas məqsədi xalqımıza xas olan milli-mənəvi dəyərləri qoruyub saxlamaq, təbliğ etməkdən ibarətdir. Qurultayın sonunda Gəncəbasarda köç yolu mədəniyyətinin qorunması və gələcək nəsillərə çatdırılmasını təmin etmək üçün bu cür tədbirlərin elmi-praktiki formatda mütəmadi olaraq digər rayonlarda da keçirilməsi qərara alınmışdır.

Qeyd etmək lazımdır ki, Gəncəbasarda köç yolunun əsas ana xəttini yarımköçəri mədəniyyət təşkil edir. Bu qədim məskənin dağlıq hissəsinin sakinləri ildə iki dəfə yaylaq-qışlaq arasında mövsümi köç edərək ilin 4 ayını Kiçik Qafqaz dağlarının ətəklərində (1800–2900 m), 8 ayını isə Ceyrançöl qışlaqlarında keçirirlər. Minillərdən süzülüb gələn köçmə heyvandarlıq mədəniyyəti Gəncəbasarın bütün mədəni tarixini, memarlıq irsini, folklorunu, inanc sistemini, ticarət əlaqələrini və s. formalaşdırıb inkişaf etdirmişdir.

***Fidan SALMANOVA***
***XQ***

Xalq qəzeti.- 2024.- 10 iyul (№ 142).- S.10.